**Həsənov Ə.** Hər açılan səhər nur şilənir məzarına... // Respublika. - 2024. - 19 iyul. - **№ 150**. - S. 10.

**Canından artıq sevdiyi Vətən, torpaq uğrunda şəhadətə qovuşmasından 4 il keçir. Hər il ad və anım günlərində Masallı Rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları, ziyalılar, döyüş yoldaşları, tələbə dostları, məktəblilər, ailə üzvləri, qohumlar məzarı üstə gəlib əziz xatirəsini ehtiramla yad edirlər.**

Cəbhədə düşmənə qan udduran, AQS-17 silahının "atası", "Mixaylo" və "Akula" ləqəbli igid kəşfiyyatçı, mayor Anar Novruzov 1976-cı ilin may ayında Masallı rayonunun Ərkivan qəsəbəsində dünyaya göz açıb.

Qarabağda müharibə başlananda Bakı Neft Texnikumunda oxuyurdu. Vətənin ağır günündə ön cəbhədə olmağı özünə övladlıq borcu bildi. Könüllü olaraq Milli Orduya yazıldı. Təhsilini də unutmadı. Bakı Ali Birləşmiş Komandirlər Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) taktiki motoatıcı qoşunları komandiri ixtisasına yiyələndi.

1999-cu ildə ön cəbhədə, 5 ilə yaxın Sumqayıt şəhərindəki hərbi hissədə xidməti borcunu yerinə yetirdi. Türkiyədə ixtisası üzrə mükəmməl təlim keçdi.

2016-cı ilin Aprel döyüşlərində misilsiz şücaət, igidlik nümunəsi göstərdi. Döyüş zamanı qəlpə yarası aldı. 2018-ci ildə ən qaynar döyüş bölgələrinə ezam olundu. Dəfələrlə snayperdən açdığı dəqiq atəşlərlə düşmənin çoxlu sayda əsgər və zabitini, silah və sursatını məhv edərək "Akula" ləqəbli kəşfiyyatçı adını qazandı. Tabor komandirinin siyasi işlər üzrə müavini vəzifəsinə kimi yüksəldi.

2020-ci ilin iyul ayında Tovuz döyüşləri zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. İyulun 14-də böyük izdihamla doğma Ərkivan qəsəbəsində torpağa tapşırıldı. Ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə, yüksək peşəkarlıq və xüsusi xidmətlərinə görə Anar Gülverdi oğlu Novruzov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görüldü. Şəhidin adının əbədiləşdirilməsi məqsədilə Ərkivan qəsəbəsində küçələrdən birinə adı verildi, vaxtilə yaşadığı evin qarşısında büstü qoyuldu. İki övladı yadigar qaldı.

Anım tədbirində unudulmaz, qəhrəman şəhidin məzarı üzərinə gül dəstələri düzüldü, parlaq xatirəsinə sonsuz ehtiram ifadə olundu. Ehtiyatda olan polkovnik Vidadi

Cahangirov Anarla bir yerdə hərbi təhsil aldıqlarını, tələbə yoldaşlarından 10 nəfərin şəhidlik məqamına yüksəldiyini bildirdi. İyul döyüşlərinin əhəmiyyətindən söhbət açaraq mayor Anar Novruzovun fədakarlığından, döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışdı.

Hərbçi yoldaşı Şirzad Hüseynov onun Vətən, torpaq uğrunda canından keçdiyini vurğuladı, döyüş yoldaşlarının Anarı və digər şəhidləri heç vaxt unutmadığını diqqətə çatdırdı.

İstefada olan zabitlərdən Zaur Əliyev və Pərviz Salayev Anarın bütün varlığı ilə hərbi peşəyə, el-obaya, Vətənə bağlı olduğunu söylədilər. Bildirdilər ki, keçmişi heç vaxt unutmamalıyıq, Anar kimi oğullar hərb tariximizə parlaq səhifələr yazıblar. Onların qəhrəmanlığı barədə kitablar yazılmalı, gələcək nəsillər Vətənin igid övladlarını tanımalıdırlar.

Həmyerlisi, istedadlı jurnalist, "Yeni həyat" (Masallı) ictimai-siyasi qəzetinin əməkdaşı Akif Ağayev dedi: "Anar Novruzovun uyuduğu məkan müqəddəs, əbədi and yerimizdir. Ulularımızdan bizə miras qalan xalqımızın qəhrəmanlıq dastanına Anar kimi oğullar yeni, parlaq səhifələr yazıblar.

Şəhid mayor Anar Novruzov nəsil şəcərəsini, Ərkivanın, doğma Masallının, canından artıq sevdiyi müstəqil Azərbaycanın adını, yüksəklərə qaldırdı. Cəsarəti, igidliyi, döyüşkənliyi ilə düşmənə qənim kəsildi. Müqəddəs qələbəmizə aparan yolun başlanğıcında-Tovuz döyüşlərində ən uca məqama yüksəldi. Qohumları ondan soruşanda ki 25 il hərbçi işləmisən, darısqal, şəraitsiz evdə yaşayırsan. Anar o vaxt onlara belə cavab verib: Mən elə bir evə sahib olacağam ki, hər biriniz o evin işığına yığışacaqsınız. Bəli, o, dediyinə də nail oldu".

Şəhidin qardaşı, respublikamızda tanınmış iqtisadçı Sücəddin Novruzov Anarın keçdiyi döyüş yolundan, iyul döyüşlərində şücaətindən, 44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfərdən danışdı. Dövlətimiz tərəfindən göstərilən yüksək diqqət və qayğıya görə şəhid ailələri adından Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirdi.